

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 14-15 (7591-7592) ✲ 1933-cü ildən nəşr olunur ✲ Cümə axşamı, 19 mart 2020-ci il. ✲ news@qebele-ih.gov.az


**İlham ƏLİYEV:** *Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır.*



# Əldə edilmiş uğurlar dünyaya nümunədir

Regionların sosial-iqtisadi inkişafı istiqamətində ciddi addımlar atılan ölkəmizdə mühüm layihələr həyata keçirilib. 2004-cü ildən başlayaraq qəbul olunan dövlət proqramlarının uğurlu icrası nəticəsində bölgələrdə müasir standartlara cavab verən çoxsaylı istehsal obyektləri ilə yanaşı sosial müəssisələr - təhsil, elm, tibb, mədəniyyət mərkəzləri inşa olunub, qaz, elektrik, rabitə-internet, su və kanalizasiya xətlərinin çəkilməsi və yenilənməsi prosesi sürətlə gedib, sahibkarlığın inkişafı, əhalinin məşğulluğun təmin olunmasıyla bağlı ciddi işlər görülüb.

Fevralın 3-də ötən il ölkə başçısı tərəfindən təsdiq olunan "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın birinci ilinin icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev dördüncü regional inkişaf proqramının əvvəlki dövrlərdə qəbul edilmiş proqramların məntiqi davamı olduğunu diqqətə çatdırıb. Dövlət başçısı qeyd edib ki, dördüncü proqram çərçivəsində keçən il əldə edilmiş iqtisadi və sosial nailiyyətlər bunu bir daha təsdiqləyir.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunları bir daha onu göstərdi ki, dövlətimiz doğru yoldadır, müstəqil siyasət yürüdür, ölkəmiz daha da güclənir. Üç proqram çərçivəsində böyük işlər görülüb və dördüncü proqram çərçivəsində ölkə qarşısında duran əsas infrastruktur vəzifələri icra olunacaq. Bununla da ölkəmizin gələcək inkişafı üçün daha gözəl imkanlar yaranacaq.- Təsadüfi deyil ki, 2019-cu ildə ölkə iqtisadiyyatı 2,2 faiz, qeyri-neft sektoru 14 faizdən çox, sənaye istehsalı isə 1,5 faiz artıb. Keçən il 98 min yeni iş yeri yaradılıb, ölkəmizə 13,5 milyard dollar sərmayə qoyulub, inflyasiya cəmi 2,5 faiz, əhalinin gəlirlərinin artımı isə 7,4 faiz təşkil edib. Valyuta ehtiyatlarımız da 6,4 milyard dollar artıb. Xüsusilə qeyd etmək lazımdır ki, bu, son illər ərzində rekord göstəricidir. Azərbaycanın valyuta ehtiyatları artıq 52 milyard dollara çatıb. Valyuta ehtiyatımız təkcə keçən ay ərzində 1 milyard dollar artıb. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycanda həyata keçirilən islahatlar Dünya Bankı tərəfindən təqdir edilir. Hətta "Doing Business" hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilib.

Cənab Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosialiqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda ölkəmizin əldə etdiyi uğurlarla yanaşı, bir sıra sahələrdə mövcud problemlərə də toxunub və onların tezliklə aradan qaldırılmasına dair tapşırıqlar verib. Konfransın nəticələri Azərbaycanda düşünülmüş uzunmüddətli siyasətin ən yüksək səviyyədə həyata keçirildiyini, ölkəmizdə aparılan islahatların ardıcıl xarakter daşıdığını, iqtisadiyyatın öz dinamik inkişafını qoruyub saxladığını, insanların rifah halının yaxşılaşdığını və firavanlığının təmin edildiyini, ölkəmizin beynəlxalq aləmdəki mövqeyinin getdikcə gücləndiyini təsdiq edir. Ona görə də Azərbaycanın uğurları və nailiyyətləri beynəlxalq təşkilatlar, reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirilir və dünyaya nümunə kimi göstərilir.

**Varis YAQUBOV,**
**"Qəbələ"**

# Azərbaycan Prezidentinin fəaliyyətinə işıq salan dəyərli nəşr




***Bu günlərdə Azərbaycanın müasir tarixi ilə maraqlanan mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulan "İlham Əliyev - On beş illik prezidentlik dövrünün uğur salnaməsi (2003-2018)" adlı yeni kitab çapdan çıxıb.***

Elmi ictimaiyyətin böyük marağına səbəb olan kitabda zəngin faktlar əsasında İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi on beş illik fəaliyyəti dövründə ölkənin dinamik inkişafının dolğun mənzərəsi yaradılır.

Azərbaycanda aparılan köklü islahatlar sayəsində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, nəhəng transmilli enerji və nəqliyyat layihələrinin uğurla reallaşdırılması, sosial-mədəni, ordu quruculuğu və xarici siyasət sahəsində əldə edilən nailiyyətlər tutarlı dəlillərlə əsaslandırılır.

Ölkədə ictimai-siyasi sabitliyin və demokratik təsisatların daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin olunması ilə bağlı görülən işlər şərh olunur.

Kitab Prezidentimizin xalq üçün, Vətən üçün göstərdiyi xidmətlərlə daha yaxından tanış olmaq üçün çox dəyərli mənbədir.

**"Qəbələ"**